# Azərbaycanın şanlı inkişaf tarixində daha bir uğurlu il



27 fevral 2024-cü ildə keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində - "Zəfər seçkisi"ndə xalqımız, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və ölkəmizin hərtərəfli inkişafına mühüm zəmin yaradan uğurlu sosial-iqtisadi və xarici siyasət kursunun cənab İlham Əliyev tərəfindən davam etdirilməsinə, ölkəmizdə sabitliyin qorunmasına növbəti dəfə öz səsini vermişdir.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra ilk dəfə olaraq bütün ərazilərimizdə keçirilən prezident seçkilərində Prezident İlham Əliyevin inamlı qələbəsi xalqımızın öz Liderinə dərin inam və sevgisinin növbəti sübutu oldu. Seçkilərin nəticələri Azərbaycan xalqının Liderinə inamını, qlobal miqyasda nüfuzlu siyasətçi olmasını bir daha təsdiqlədi. Aparıcı dünya dövlətlərinin və beynəlxalq təşkilatların rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları təbrik məktublarında yer alan səmimi ifadələr də məhz bunun nümayişi idi.

Prezident İlham Əliyevin mükəmməl Liderlik bacarığı, xalq-iqtidar və vətəndaş-dövlət birliyinin nümunəvi modeli sayəsində son 1 il Azərbaycanın şanlı inkişaf tarixində daha bir qürurverici, yeni səhifənin açılması ilə əlamətdar olmuşdur.

Ölkəmiz üçün ən mühüm siyasi hadisələrdən biri olan "Zəfər seçkisi"ndən sonrakı 1 il ərzində Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Belə ki, 2024-cü ildə ölkədə 126,3 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuş, yəni əvvəlki illə müqayisədə ümumi daxili məhsul 4 faizdən çox artmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM 12382,5 manata bərabər olmuşdur. İqtisadi inkişafın bizim üçün əsas göstəricisi olan qeyri-neft sektorunun inkişafını xüsusilə qeyd etmək lazımdır. İqtisadiyyatımızın qeyri-neft-qaz sektorunda əlavə dəyər 6 faizdən çox, qeyri-neft-sənaye sektorunda isə 7 faizdən çox artmışdır.

Ümumiyyətlə, bu günədək ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunması üçün qəbul edilmiş bir çox dövlət proqramı nəticəsində ölkə iqtisadiyyatı dinamik inkişaf edərək, əhalinin sosial vəziyyəti xeyli yaxşılaşdırılmışdır. Əməkhaqları, pensiyalar, təqaüdlər və müavinətlər artırılmış, yoxsulluq səviyyəsi minimuma enmişdir.

Xüsusilə qeyd edilməlidir ki, dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl artımı hökumətin sosial siyasətinin mühüm nəticəsidir.

Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən, 2025-ci il yanvarın 1-dən minimum əməkhaqqı, 2025-ci il fevralın 1-dən isə əmək pensiyasının minimum məbləği artmışdır.

Məhz Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqəti və qayğısı çərçivəsində, ölkədə sosial tərəqqi və sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılması təmin edilmişdir.

Beynəlxalq müstəvidə də uğurla gerçəkləşdirilən prinsipial və müstəqil siyasət kursu dövlətimizin nüfuzunu davamlı olaraq artırmaqdadır. Dünyanın əksər ölkəsi ilə istər ikitərəfli, istərsə də çoxtərəfli formatda qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsipləri üzərində qurulan əlaqələr öz bəhrəsini verməkdədir. Xüsusilə qeyd edilməlidir ki, ölkəmiz sədrlik etdiyi və ya üzv qəbul olunduğu beynəlxalq təşkilatlarda daim öz fəallığı ilə seçilmiş və bu təşkilatların fəaliyyətinə əhəmiyyətli töhfə vermişdir. Bu baxımdan, ölkəmizin bu ildən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi, həmçinin inkişaf etməkdə olan səkkiz islam ölkəsini birləşdirən D8 qrupuna üzvlüyü prosesində qeyd olunan təşkilatların fəaliyyətinin intensivləşməsində vacib rol oynayacağı şübhə doğurmur.

Heç şübhəsiz, son əsrlərdə ilk dəfə olaraq Azərbaycanı şanlı Zəfərə qovuşduran Liderimizin xalqımız qarşısında misilsiz xidmətləri dövlətimizi və xalqımızı daha böyük uğurlara aparacaq və əminik ki, Vətənimiz Azərbaycan qarşıdan gələn illərdə də davamlı nailiyyətlərə imza atacaq.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

Azərbaycan. - 2025.- 14 fevral (№ 33).- S.10.